# Qarşılıqlı etimada əsaslanan əməkdaşlıq

## *Xəzəryanı dövlətlərin genişlənən əlaqələri regionda sabitliyə və firavanlığa xidmət edir*

**İyunun 29-da Türkmənistanın paytaxtı Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə görüşü keçirilib. Sammitdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin iştirak ediblər.**

Xəzər dənizi regionunda təhlükəsizlik, iqtisadi əməkdaşlıq, ekoloji problemlər və s. mövzuların müzakirə olunduğu Aşqabad sammitində, həmçinin, əməkdaşlığın konkret istiqamətləri, əvvəlki razılaşmaların həyata keçirilməsində irəliləyişlər və mühüm beynəlxalq məsələlər diqqət mərkəzində saxlanılıb.

**(davamı 3-cü səhifədə)**

# Qarşılıqlı etimada əsaslanan əməkdaşlıq

## *Xəzəryanı dövlətlərin genişlənən əlaqələri regionda sabitliyə və firavanlığa xidmət edir*

**(əvvəli 1-ci səhifədə)**

Sammitdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın ölkələrin qarşılıqlı fəaliyyətinə böyük önəm verdiyini və Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiyanın tarixi əhəmiyyətini qeyd edib. Xəzərin hüquqi statusuna dair Aktauda imzalanmış sənədin qüvvəyə minməsi ilə sahilyanı dövlətlər arasında hərtərəfli qarşılıqlı fəaliyyətə və əməkdaşlığa yönəlmiş daha səmərəli tədbirlər üçün möhkəm hüquqi baza yaradılacağını bildirən Prezident İlham Əliyev Azərbaycanın Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biri olduğunu və Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynadığını diqqətə çatdırıb. Trans-Xəzər beynəlxalq daşıma marşrutunun Xəzərlə həmsərhəd dövlətlərin nəqliyyat potensialından maksimum istifadəni təmin edəcəyini və nəqliyyat infrastrukturunun inkişafı üçün yeni layihələrin həyata keçirilməsinə şərait yaradacağını qeyd edib. Dövlətimizin başçısı bu görüşün ölkələrimiz arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Xəzəryanı dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət etməsi və daxili işlərinə qarışmaması, tərəflərin hər birinin mənafeyinin nəzərə alınmasının qarşılıqlı fəaliyyətin əsasını təşkil etdiyini deyən dövlət rəhbəri həmçinin, faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasını sahilyanı dövlətlərin əsas prioritetləri kimi dəyərləndirib. Ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına Azərbaycan dövlətinin də şərik olduğunu deyən Prezident İlham Əliyev Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Dövlət başçımız Türkmənistan ilə Azərbaycan arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda münasibətlərin yüksək səviyyədə olduğunu və bu əməkdaşlığın gündən-günə dərinləşdiyini, qarşılıqlı siyasi fəaliyyətin möhkəmləndiyini diqqətə çatdırıb. Bununla yanaşı, həm Türkmənistanda, həm də Azərbaycanda müasir dəniz limanlarının inşa edildiyini, dəmir yolu infrastrukturuna böyük sərmayə qoyuldugunu deyən Azərbaycan Prezidenti bütün bunların nəticəsində Xəzər dənizindən keçməklə Türkmənistanla Azərbaycan arasında yük axınının artmasının həm ölkələrimizin, həm də qonşularımızın mənafelərinə uyğun olduğunu deyib.




Türkmənistanın Xəzər dənizində və Xəzəryanı dövlətlər arasında əməkdaşlığa töhfəsini yüksək qiymətləndirən Prezident İlham Əliyev VI Zirvə Toplantısının təhlükəsizlik, ekologiya, su ehtiyatları istiqamətləri üzrə əməkdaşlığın möhkəmlənməsi işində daha bir addım olacağına əminliyini bildirib.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov sammitdəki çıxışında Xəzər regionunda nəqliyyat, logistika, mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirildiyini qeyd edib və Xəzər dənizi ilə həmsərhəd ölkələrin nümayəndələri arasında əlaqələrin yaxşılaşdırılması istiqamətində addımların atılmasının vacibliyini vurğulayaraq, Xəzəryanı Ölkələrin Əməkdaşlıq Şurasının yaradılmasını təklif edib. Türkmənistan prezidenti regionda əməkdaşlığın mühüm məsələlərindən biri kimi Xəzər dənizində hasilatın yaxşılaşmasını göstərib. Xəzəryanı ölkələrin zəngin təbii qaz ehtiyatlarına, güclü sənaye və texnoloji potensiala malik olduğunu deyən Sərdar Berdiməhəmmədov bu resursların və potensialın birləşdirilməsinə, "yaxınlaşma dəhlizləri"nin yaradılmasına diqqət çəkərək bildirib ki, sahilyanı ölkələrin proqramlaşdırılmış biznes forumlarına başlamaq zərurəti yaranıb. Sahibkarlar bu məqsədlə əlverişli və uyğun olan sahələrdə əməkdaşlıq yollarını müstəqil şəkildə müəyyən edə biləcəklər.

Rusiya Prezidenti Vladimir Putin Xəzər dənizi regionunda siyasət, təhlükəsizlik, iqtisadiyyat və ətraf mühitin mühafizəsi kimi sahələrdə əlaqələrin dərinləşməsinin tərəfdarı olduğunu bəyan edib. Regionda enerji sektorunda əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğuna diqqət çəkən Vladimir Putin Xəzər dənizindəki neft və qaz yataqlarının birgə istifadəsi ilə bağlı razılaşmaların əldə olunmasının buradakı təbii sərvətlərdən tərəflərin mənafeyinə uyğun olaraq səmərəli şəkildə istifadəni mümkün etdiyini deyib. Rusiya dövlətinin başçısı Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə görüşünün işgüzar keçdiyini, regional əməkdaşlığın inkişafına dair maraqlı təkliflərin irəli sürüldüyünü söyləyib. Azərbaycanın dövlət başçısı ilə görüşün faydalı olduğunu bildirən Vladimir Putin aparılan müzakirələrin ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyini qeyd edib. Rusiya dövlət başçısı Sankt-Peterburq şəhərini İran və Hindistan limanları ilə birləşdirən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi layihəsinin əhəmiyyətini diqqətə çatdırıb.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev 5 ölkənin bölüşdüyü Xəzər dənizinin dostluq, mehriban qonşuluq və qarşılıqlı əməkdaşlıq dənizi olması fikrilə ölkəsinin hər zaman tərəfdar olduğunu bildirib. Xəzər dənizinin hüquqi statusuna dair Aktauda baş tutan tarixi sammitdən 4 il keçdiyini və bu müddət ərzində dünyada çox şeyin dəyişdiyini bildirən Qazaxıstan rəhbəri Xəzər regionunun sabitliyini və davamlı inkişafını təmin etmək üçün əməkdaşlığın gücləndirilməsinin vacibliyini bildirib.

İran Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə əməkdaşlığın inkişafı üçün iki ölkənin imkanlarından ən yaxşı şəkildə istifadə etməyin zəruriliyini bildirib. O, Xəzəryanı ölkələrin dövlət başçılarının mütəmadi olaraq görüşlərini Xəzər dənizi ilə bağlı önəmli məsələlərin həllində, münasibətlərin inkişafında vacib amil kimi qiymətləndirib. İki ölkə arasındakı siyasi, iqtisadi münasibətlərin, ticarət, mədəniyyət əlaqələrinin daha da inkişaf etdirilməsi üçün potensialın artıqlaması ilə olduğunu vurğulayıb və bunu yüksək səviyyədə dəyərləndirməyin gərəkliyini qeyd edib.

Xəzər dənizi ilə həmsərhəd olan beş ölkənin - Türkmənistan, Azərbaycan, İran, Qazaxıstan və Rusiyanın dövlət başçıları görüşün sonunda birgə bəyanat imzalayıblar. Xəzərlə həmsərhəd dövlətlərin işinin əsas prinsiplərini ümumiləşdirən bəyannamədə Xəzər dənizindən dinc istifadə, Xəzərlə bağlı bütün problemlərin sülh yolu ilə həlli, Xəzər regionunda təhlükəsizlik və sabitliyin təmin edilməsi, Xəzərin potensialının tam reallaşdırılması, onun sülh, təhlükəsizlik, əməkdaşlıq və ekoloji cəhətdən təmiz zona kimi qorunub saxlanması öz əksini tapıb.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2022.- 7 iyul.- S.1;3.